

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 31 mart 2021-ci il №24 (2532) https://mod.gov.az Qiymıəti 30 qəpik


## Azərbaycan Ordusunun yazdığı qəhrəmanlıq tarixi əsrlər boyu yaddaşımızdan silinməyəcək

*Sentyabrın 27-də Ermənistanın hərbi təxribatlarına qarşı əks-hücum əməliyyatı ilə başlayan və noyabrın 10-da düşmənin təslim olması ilə nəticələnən İkinci Qarabağ müharibəsində ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu xalqımızın Zəfər salnaməsini yazdı.*



Dövlət başçısının qəti iradəsi və müdrik xarici siyasəti, ordumuzun qəhrəmanlığı və şücaəti, xalqımızın birliyi və həmrəyliyi nəticəsində erməni işğalçıları həm hərbi, həm də siyasi meydanda ağır məğlubiyyətə uğradıldı, Böyük Qələbə qazanılaraq tarixi ədalət bərpa olundu, xalqın inamı özünə qaytarıldı. 44 günlük müharibə təkcə bölgənin hərbi-siyasi həyatı üçün deyil, həm də beynəlxalq təhlükəsizliyin təminatı üçün müsbət tendensiyadır.

Azərbaycanın qələbəsi Qafqazda və ümumilikdə, regionda terrorçu və faşizm rejiminin süqutuna səbəb oldu. Ölkə başçısı İlham Əliyev noyabrın 25-də Kəlbəcər rayonunun işğaldan azad olunması münasibətilə xalqa müraciəti zamanı bu barədə demişdir: "Mən bir daha deyirəm və hər dəfə deyəcəyəm, bizim Qələbəmiz təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil, biz erməni faşizmini məhv etdik".

Ölkəmizin Dağlıq Qarabağ və ətraf ərazilərində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə erməni işğalçıları üzərində qazandığı hərbi-siyasi Zəfər xalqımızın çoxəsrlik tarixinin ən böyük hadisəsidir. Tarixin ən müxtəlif dövrlərində azərbaycanlıların iştirak etdikləri müharibə və yürüşlərdə qazanılmış qələbələrdən heç birində Azərbaycan faktoru indiki qədər mühüm yer tutmayıb, ümummilli əhəmiyyət kəsb etməyib.

Qələbə nəticəsində builki Novruz bayramını xalqımız böyük sevinc və yüksək əhval-ruhiyyə ilə qarşıladı. Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşadan, Cıdır düzündən xalqımızın haqq səsini qətiyyətlə dünya ictimaiyyətinə çatdıran, ən mötəbər kürsülərdən "Qarabağ Azərbaycandır!" deyən ölkə Prezidenti İlham Əliyevin bayram tonqalı ətrafında böyük qürur hissi ilə "Şuşa sən azadsan!", "Şuşa Azərbaycandır!", "Qarabağ Azərbaycandır!" deyərək, bir daha işğalçı dövlətə layiq olduğu yeri göstərməsi xalqımızın qəlbini iftixar, qürur hissi ilə doldurdu.

Tarixi və şanlı Zəfər - dəmir iradənin, yenilməz qətiyyətin, monolit birliyin və ordumuzun qələbə əzminin nəticəsidir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, irədə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik.

Birlikdən güc alan Azərbaycan Ordusunun işğal altındakı ərazilərimizin azad edilməsi uğrunda yazdıqları qəhrəmanlıq tarixi əsrlər boyu yaddaşımızdan silinməyəcək. Vətən müharibəsində dövlətimiz və ordumuzun əldə etdiyi müvəffəqiyyətlər, qazanılan Qələbə hər birimizə misilsiz qürur hissi bəxş etdi.

**"Azərbaycan Ordusu"**



Birgə Monitorinq Mərkəzində Novruz mətbəxi təşkil edilib

2-ci səhifədə



"Hazırlıqlı və peşəkar ordumuzun qarşısında tab gətirə bilmədilər"

4-cü səhifədə



Qoşunların döyüş təminatının bir növü də kimya təminatı və kütləvi qırğın silahlarından qorunmaqdır

5-ci səhifədə



Tariximizin qanla yazılan səhifələri

6-cı səhifədə

# Müdafiə naziri bölmələrin döyüş qabiliyyətinin yüksəldilməsini tələb edib

*Martın 29-da Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də videobağlantı vasitəsilə azad edilmiş ərazilərdə yerləşən birlik və birləşmə komandirləri, o cümlədən digər məsul zabitlərin də cəlb olunması ilə xidməti müşavirə keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, azad edilmiş ərazilərdə xidmətin təşkili ilə bağlı məsələlərə toxunan Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişlərini və qarşıda duran vəzifələri müşavirə iştirakçılarına çatdırıb.

General-polkovnik Zakir Həsənov şəxsi heyətin hazırlıq səviyyəsinin və bölmələrin döyüş qabiliyyətinin artırılmasında Vətən müharibəsində qazanılan təcrübə nəzərə alınmaqla əsas diqqətin hərbi hissələrdə, xüsusilə də azad edilmiş ərazilərdə yerləşən bölmələrdə keçirilən döyüş hazırlığı üzrə məşq və dərslərin keyfiyyətinin yüksəldilməsinə yönəldilməsini tapşırıb.



Müdafiə naziri Azərbaycan Ordusunun şəxsi heyətinin təhlükəsizliyinin təmin edilməsi və sağlamlığının qorunmasının, mənəvi-psixoloji hazırlığının yüksəldilməsinin, hərbi intizamın möhkəmləndirilməsinin vacibliyini qeyd edib.

General-polkovnik Zakir Həsənov azad edilmiş ərazilərdə hərbi infrastrukturun inkişaf etdirilməsi, mühəndis-istehkam işləri və qoşunların mühəndis təminatı tədbirləri, döyüş növbətçiliyinə cəlb edilən hərbi qulluqçuların sayıqlığının artırılması, həmçinin bölmələrin maddi-texniki təminat və təchizatının daha da yaxşılaşdırılması ilə bağlı konkret göstərişlər verib.

# Əlahiddə Ümumqoşun Ordunun tank əleyhinə bölmələrində ixtisas toplantısı keçirilir

*Vətən müharibəsində iştirak etmiş Əlahiddə Ümumqoşun Ordunun tank əleyhinə bölmələrinin heyətləri döyüşlər zamanı düşmən texnikalarının dəqiqliklə məhv edilməsi tapşırıqlarını uğurla yerinə yetiriblər. Əlahiddə Ümumqoşun Orduda tank əleyhinə bölmələrlə keçirilən ixtisas toplantısında Vətən müharibəsində iştirak etmiş heyətlərin döyüş təcrübəsi öyrənilir və praktiki atışlar icra edilir.*





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ixtisas toplantısının birinci mərhələsində Naxçıvan Qarnizonunun Simulyasiya mərkəzində xüsusi proqram təminatına malik kompüter və məşq qurğuları üzərində praktiki atışlar keçirilib.

Şəxsi heyətin taktiki, texniki və ixtisas hazırlığının yüksəldilməsi, metodiki vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən toplantının ikinci mərhələsində isə heyətlərin səhra bacarıqları yoxlanılıb.

Hazırda davam edən toplantılarda heyətlərin tank təhlükəli istiqamətlərdə açılma hədlərini tutması, tank əleyhinə dəzgahlı qumbaraatanlardan düzünə və yarımdüzünə tuşlama ilə yaxın və uzaq məsafələrdə hədəfləri məhv etməsi vərdişləri praktiki atışlarla təkmilləşdirilir.

# Birgə Monitorinq Mərkəzində Novruz mətbəxi təşkil edilib

*Ağdam rayonu ərazisində fəaliyyət göstərən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzində Azərbaycan Milli Kulinariya Assosiasiyasının təşəbbüsü ilə Novruz mətbəxi təşkil edilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə professor Tahir Əmiraslanov xalqımızın qonaqpərvərliyi, Novruz bayramının adət-ənənələri, bayramda bişirilən şirniyyatların mənaları barədə hərbi qulluqçulara ətraflı məlumat verib.



Sonda Assosiasiyanın diplomları və professor T.Əmiraslanovun müəllifi olduğu kitablar tədbir iştirakçılarına təqdim olunub, nahar təşkil edilib.

# "Azərbaycan Ordusunun qəhrəmanlığı mənfur işğala son qoydu"

*Azərbaycan Qarabağ böhranını danışıqlar yolu ilə həll etmək üçün böyük səylər göstərdi. Ermənistan isə dialoq imkanlarını pozan tərəf oldu.*

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sədri olduğu hakim Ədalət və İnkişaf Partiyasının (AKP) yeddinci qurultayındakı çıxışında ifadə edib.

Ermənistan ordusunun təxribatlarından danışan və torpaqlarımıza qarşı yeni hücumlar etməsini xatırladan dövlət başçısı Rəcəb Tayyib Ərdoğan deyib: "Ermənistan yeni hücumlara başlayanda bütün imkanlarımızla azərbaycanlı qardaşlarımızın yanında olduq. Türkiyənin dəstəyi, Azərbaycan Ordusunun qəhrəmanlığı və dastanlara yazılacaq mübarizəsi ilə bu mənfur işğala son qoyuldu."

Hazırda bölgədəki vəziyyət barədə də fikir və mülahizələrini bölüşən Rəcəb Tayyib Ərdoğan deyib ki, Türkiyə-Azərbaycan qardaşlığını daha da gücləndirən bu mərhələnin imzalanan razılaşma çərçivəsində başa çatması üçün prosesləri yaxından izləməkdə davam edəcəyik.

# Pakistan Hərbi Hava Qüvvələrinin nümayəndə heyəti Azərbaycanda səfərdədir

***Martın 29-da Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov Azərbaycanda işgüzar səfərdə olan Pakistan İslam Respublikasının Hərbi Hava Qüvvələri komandanının müavini aviasiya marşalı Aamir Masudun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Pakistanın nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edərək ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarları üzərinə əklil və gül dəstələri qoyub, xatirələrini ehtiramla anıb.

Görüşdə Azərbaycan-Pakistan əlaqələrinin yüksələn xətlə inkişaf etməsindən və strateji tərəfdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub.



Pakistanlı marşal Vətən müharibəsində qazanılan qələbə münasibətilə Azərbaycan xalqını təbrik edib, şəhid olan hərbi qulluqçulara və mülki şəxslərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib.

Tərəflər Azərbaycan və Pakistan hərbi hava qüvvələri arasında hərbi, hərbi təhsil və hərbi-texniki əməkdaşlığın perspektivlərini, eləcə də qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Naxçıvan Qarnizonundan xəbərlər



***"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən "Dövlət sərhədinin pozulması hallarının qarşısının alınması üzrə Naxçıvan Qarnizonu Qoşunlarının birgə fəaliyyəti" mövzusunda birgə taktiki təlim məşqi keçirilib.***

Təlim məşqinin ssenarisinə əsasən, sərhəd pozucuları dövlət sərhədini pozaraq qeyri-qanuni şəkildə Naxçıvan Muxtar Respublikasının ərazisinə keçməyə cəhd ediblər. Dövlət sərhədinin pozulması halı aşkar edildikdən sonra sərhədin mühafizəsi gücləndirilməklə aidiyyəti qurumların müvafiq bölmələri xəbərdar edilib. Sərhəd naryadından daxil olmuş siqnala əsasən şəxsi heyət "Silaha" komandası ilə qalxır, "Həyəcan qrupu" sərhəd naryadları hadisə baş vermiş əraziyə hərəkət edib.

Axtarış rayonunda dövlət sərhədinin pozulduğu istiqamətdə sərhəd pozucularının dərinliyə sızmasına imkan verməmək məqsədilə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının bağlama qrupları ilə birgə Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrindən və Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının xüsusi təyinatlı dəstəsindən ayrılmış qruplar da cəlb edilməklə təyin olunmuş hüdudlar boyu ərazi bağlanıb.

Əməliyyat-axtarış tədbirlərinin daha effektli həyata keçirilməsi üçün əməliyyat rayonunda birgə qərargah yaradılıb. Əlahiddə Ümumqoşun Ordunun, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının və Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının axtarış qrupları ilə əməliyyat rayonunda sərhəd pozucularının aşkarlanması və yaxalanması məqsədilə xüsusi texniki vasitələrin imkanlarından istifadə edilməklə təxirəsalınmaz sərhəd axtarışı tədbirləri keçirilib.



Aparılmış uğurlu axtarış əməliyyatları nəticəsində dronların müşahidəsi ilə aşkar olunmuş sərhəd pozucuları müxtəlif istiqamətlərdə mühasirəyə alınaraq yaxalanıb.

Yaxalanmış sərhəd pozucuları aidiyyəti orqanlara təhvil verildikdən sonra sərhəd axtarışı ərazisində fəaliyyət dayandırılaraq rejimə qoyulmuş məhdudiyyətlər aradan qaldırılıb.

Əlahiddə Ümumqoşun Ordunun, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının, yerli hüquq-mühafizə və icra orqanlarının, həmin ərazidə yaşayan vətəndaşların birgə fəaliyyəti nəticəsində təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olunub.

* * *

Əlahiddə Ümumqoşun Orduda ixtisas hazırlığı kursları başa çatan gənc əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar.

Mərasimdə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi yad edildikdən və Dövlət Himnimiz səsləndirildikdən sonra çıxış edənlər məşğələlərdə yenilməz döyüşçü keyfiyyətlərinə yiyələnən gənc əsgərlərə xidmətlərində uğurlar arzuladılar. Çıxış edənlər bildirdilər ki, hərbi xidmətə çağırılan gənclərimiz ordu sıralarına daxil olan gündən ümumqoşun, ixtisas və fiziki hazırlıq məşğələlərində peşəkar əsgərlər kimi hazırlanırlar. Əlahiddə Ümumqoşun Orduda yanvar ayı ərzində həqiqi hərbi xidmətə çağırılaraq məşğələlərə cəlb edilmiş gənc əsgərlər də ixtisas hazırlığı kurslarını uğurla bitirərək növbəti xidmət yerlərində döyüş növbətçiliyinə cəlb olunacaqlar. İnanırıq ki, bu gündən döyüş növbətçiliyinə cəlb olunacaq əsgərlərimiz də Vətən müharibəsində şücaətləri ilə seçilən hərbi qulluqçularımız kimi torpaqlarımızın müdafiəsində cəsarətlə dayanacaqlar.

Çıxışların ardından əsgərlər müxtəlif ixtisaslar üzrə qazandıqları bilik və bacarıqları nümayiş etdirdilər.

Yolasalma mərasimi şəxsi heyətin təntənəli keçidi ilə başa çatdı.

* * *

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ümumtəhsil məktəblərinin hərbi rəhbərləri ilə təlim toplantısı keçirilib.

Toplantı zamanı əsas diqqət "Gənclərin çağırışaqədərki hazırlığı" fənnini tədris edən hərbi rəhbərlərin şagirdlərlə işləyərkən yeni metodlardan istifadə bacarıqlarının və dərslərə yaradıcılıqla yanaşılması vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.



Dərslər zamanı bildirilib ki, gələcəyin əsgərləri olacaq şagirdlərdə hərb sənətinə maraq yaratmaq və gəncləri hərbi xidmətə hazırlamaq üçün muxtar respublikada hərtərəfli şərait mövcuddur. Fəxrlə deyirik ki, vətənpərvər gəncliyin yetişməsi nəticəsində Naxçıvandan olan hərbi qulluqçular 44 günlük Vətən müharibəsində şücaətləri ilə fərqləndilər. Həm Heydər Əliyev adına Hərbi Liseyin, həm də Naxçıvan Qarnizonu Qoşunlarında təşkil olunan ixtisas hazırlığı kurslarının məzunları ərazi bütövlüyümüz uğrunda aparılan müharibədə rəşadətləri ilə tarix yazdılar. Sevindirici haldır ki, hazırda hərbi rəhbərlər arasında Naxçıvan Qarnizonu Qoşunlarında təşkil edilmiş zabit hazırlığı kursunun məzunları da yer almaqdadır.

Toplantıda hərbi vətənpərvərlik mövzusunda sənədli tədris filmləri nümayiş etdirilib.

Atıcı silahlar üzrə praktiki bilik və bacarıqları yoxlanılan hərbi rəhbərlər yaralılara tibbi yardımın göstərilməsi və fiziki hazırlıq üzrə məşğələlərə cəlb ediliblər. Pilotsuz uçuş aparatlarının təyinatı ilə tanış olan toplantı iştirakçıları Vətən müharibəsində düşməndən qənimət kimi götürülərək saz vəziyyətə gətirilmiş hərbi texnikalara da baxıblar.

Əlahiddə Ümumqoşun Ordunun, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə keçirilən üç günlük təlim toplantısının yekununda hərbi rəhbərlərin peşəkarlıqlarının artırılmasının bundan sonra da diqqət mərkəzində saxlanılmasının vacibliyindən danışılıb. Qeyd olunub ki, məktəblərimizdə Vətənimizin ərazi bütövlüyü uğrunda vuruşan hərbçilərimizin döyüş yolunu öyrənən vətənpərvər gəncliyin təhsil alması hərbi rəhbərlərin məsuliyyətini daha da artırır.

Sonda hərbi rəhbərləri maraqlandıran suallar cavablandırılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Tarix yazan oğullar

# Yaralansa da, yenidən döyüşə atılaraq Şuşada şəhidlik zirvəsinə yüksələn Elvin Dadaşov



***Qırx dörd gün davam edən Vətən müharibəsində qəhrəman oğullarımız göstərdikləri şücaətlə bir daha sübut etdilər ki, bizim xalq böyük xalqdır. Bu yurdu qorumağa qadir olan ləyaqətli oğullarımız hər zaman var olub, bundan sonra da olacaq. Sıravi əsgərindən tutmuş generalınadək hər bir döyüşçü əlində silah Vətənimizin bütövlüyü uğrunda haqq savaşında tarix yazdı.***



AZƏRTAC xəbər verir ki, Vətən müharibəsində adını qəhrəmanlar sırasına yazdıran oğullarımızdan biri də şəhid gizir Elvin İmanqulu oğlu Dadaşovdur.

1993-cü ildə Neftçalanın Qoltuq qəsəbəsində dünyaya göz açan Elvinin uşaqlıqdan arzusu hərbçi olmaq idi. Elə həmişə də bu arzusuna çatmaq üçün can atardı. Məktəb illərində idman və hərbi hazırlıq dərslərinə xüsusi maraq göstərirdi. Dostlarına deyərdi ki, bir tək arzum var, o da Qarabağı azad görməkdir. Elə bu arzusu Elvini başqa peşəni seçməyə imkan vermədi. O, arzusunu gerçəkləşdirmək üçün hərb sənətini seçdi.

Şəhidin anası Sevinc Dadaşova Elvinin döyüş yolundan danışarkən dedi: "Oğlum Füzuli və Qubadlı istiqamətlərində döyüşüb. Neçə-neçə yaralı əsgərimizi döyüş meydanından çıxarıb. Arzuladığı Şuşada şəhidlik zirvəsinə yüksəlib. Onun yoxluğu ilə barışmaq çətin olsa da, bir təsəlli yerim var: Elvin Vətən uğrunda əlçatmaz zirvəyə yüksəldi".

Vətən müharibəsi başlayan gündən igidliklə vuruşan Elvin tankçı kimi düşmənin bir neçə texnikasını, canlı qüvvəsini məhv edib. Şiddətli döyüşlər zamanı yaralı silahdaşlarını mərmi atəşi altından çıxararaq təxliyə edib. Yorulmaq bilmədən döyüşən gizir özü də bir neçə dəfə yaralanıb. O, hərbi hospitalda müalicə aldıqdan sonra yenidən müharibənin od-alovu içərisinə atılıb. Cəbrayıl, Füzuli, Qubadlı, Xocavənd və Şuşa istiqamətlərində gedən döyüşlərdə böyük şücaət göstərib. Döyüşlərin birində idarə etdiyi BMP vurulub və o, qəhrəmancasına şəhid olub.

"Xəstəxanadan çıxandan sonra gəldi uşağını gördü, yenə qayıtdı. İdarə etdiyi döyüş maşını vuruldu, yaralanmışdı. Axırıncı döyüş yolu Şuşa-Xocavənd istiqamətində oldu. Düzdür, başımızı uca elədi, ancaq valideyn üçün ağırdır. Vətən yolunda şəhid oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin", - deyə atası İmanqulu Dadaşov bildirdi.

Gizir Elvin Dadaşov 11 ay idi ki, ailə həyatı qurmuşdu. Həyat yoldaşı Türkan xanıma həmişə deyərmiş ki, övladlarını qorxmaz, vətənpərvər böyüdəcək. Döyüşlərin ən qızğın vaxtı, oktyabr ayında Elvinin övladı dünyaya gəlir. Şəhid olacağını bilirmiş kimi, yaralı olanda evə gələrək, övladını görüb, onunla vidalaşıb və yenidən döyüşə qayıdıb.

Şəhidin həyat yoldaşı Türkan Dadaşova Elvinin gözəl insan, fədakar ata, səmimi həyat yoldaşı olduğunu söyləyir. Elvinin yoxluğu ilə barışmaq onun üçün də çox çətindir. Türkan xanım həyat yoldaşının arzusunu reallaşdıracağını, övladını məhz Elvinin dediyi kimi, qorxmaz, vətənpərvər böyüdəcəyini dedi.

Elvin Dadaşov ölümündən sonra Ali Baş Komandan İlham Əliyevin Sərəncamı ilə "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

# Şəhidin xatirəsinə tikilən bulağın açılışı olub

Kürdəmirdə şəhid Şirallı Səlimovun xatirəsinə tikilən bulağın açılışı olub. Bulaq rayonun Sor-Sor kəndində Ağsu-Kürdəmir-İmişli magistral yolunun kənarında tikilib. Xatirə bulağının tikilməsində kənd sakinləri də yaxından iştirak edib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, açılış mərasimində rayon rəhbərliyi, kənd sakinləri və şəhidin ailə üzvləri iştirak ediblər. Əvvəlcə torpaqlarımızın bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Açılış mərasimində şəhid Şirallı Səlimovun qısa, şərəfli ömür yolundan danışılıb. Bildirilib ki, iki bacının bir qardaşı olan Şirallı 2000-ci ildə Kürdəmirin Sor-Sor kəndində anadan olub. 2018-ci ildə Füzuli rayonunda həqiqi hərbi xidmətini başa vurub. Vətən müharibəsinin ilk günlərindən xidmət etdiyi Füzuli rayonunda döyüşə qatılıb. Füzulinin, Cəbrayılın, Hadrutun və bir sıra yüksəkliklərin azad olunmasında qəhrəmancasına vuruşub. Ağır və şərəfli döyüş yolu keçən igid əsgər Şuşanın işğaldan azad olunması uğrunda döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib. Prezident İlham Əliyevin Sərəncamı ilə "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Çıxışlarda 44 günlük Vətən müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi Qələbədən danışılıb, Şirallı və onun kimi şəhidlərimizin qanının yerdə qalmadığı vurğulanıb.

Şəhidin atası Vüqar Səlimov göstərilən diqqət və qayğıya görə təşəkkürünü bildirib.

## Medallı igidlərimiz

# "Hazırlıqlı və peşəkar ordumuzun qarşısında tab gətirə bilmədilər"



***Azərbaycan Ordusunun sentyabrın 27-də işğalçı Ermənistana qarşı başladığı uğurlu əks-hücum əməliyyatı tarixi qələbəmizlə başa çatdı. Döyüşlərdə tətbiq edilən müasir silah və texnikalar qələbənin qazanılmasında xüsusi önəm daşıdı. 2016-cı ilin aprelində, 2018-ci ilin mayında olduğu kimi, 2020-ci ilin Vətən müharibəsində də Azərbaycan əsgəri əsl qəhrəmanlıq nümunəsi göstərərək adını Zəfər salnaməmizə qızıl hərflərlə yazdı. 44 günlük döyüşlər zamanı bütün dünya Azərbaycan xalqının birliyini, Azərbaycan Ordusunun qələbə əzmini, döyüş və mənəvi-psixoloji hazırlığını aydın şəkildə gördü. Qazanılan qələbədə payı olan igidlərimizdən biri - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Eldəniz Qaraxanov ilə "N" hərbi hissəsində həmsöhbət olduq.***

Eldəniz Qaraxanov 1989-cu ildə Şirvan şəhərində anadan olub. Tam orta təhsilini başa vurduqdan sonra müddətli həqiqi hərbi xidmətə yollanıb. Hərb peşəsinə olan maraq və istəyi tərxis olunduqdan sonra onu ordu sıralarına qayıtmağa, Vətənin keşiyində dayanmağa səsləyib. 2014-cü ildə "N" hərbi hissəsində "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursunu tuşlayıcı-operator ixtisası üzrə bitirib. Xidmətinə cəbhə bölgəsində yerləşən bölmələrdən birində başlayıb. Təcrübəli hərbi qulluqçu xidmət müddətində bir neçə dəfə "Ən yaxşı tuşlayıcı-operator" yarışlarının mükafatçısı olub. İxtisasını mükəmməl mənimsəyən Eldəniz 2016-cı ilin Aprel döyüşlərinin də iştirakçısıdır. Şəxsi heyətlə birgə cəbhənin ön xəttində müdafiədə dayanaraq düşmənin hər hansı bir təxribatının qarşısını almağa hazır vəziyyətdə gözləyib.

27 sentyabr 2020-ci ildə uğurlu əks-hücum əməliyyatı ilə başlayan Vətən müharibəsinin iştirakçısı olan həmsöhbətim Füzuli rayonu uğrunda gedən döyüşlərə qatılıb. "Sentyabrın 27-də ermənilər yenidən genişmiqyaslı təxribat törətməyə cəhd göstərdilər. Düşmən təxribatının qarşısını almaq məqsədilə səhər saatlarında bölmələrimizə həyəcan siqnalı verildi. Tuşlayıcısı olduğum zirehli texnika ilə erməni təxribatının qarşısını alaraq əks-hücum əməliyyatına başladıq. Ağır döyüşlər başlandı. Düşmən ciddi müqavimət göstərirdi. Lakin çox keçmədən dəqiq atəş zərbələri ilə onların xeyli sayda canlı qüvvə və texnikasını, atəş nöqtələrini məhv etdik. Təlaş içində qalan düşmən silah-sursatlarını, atəş mövqelərini ataraq qaçmağa başladı. Hazırlıqlı və peşəkar ordumuzun qarşısında tab gətirə bilmədilər."

Daha sonra Eldəniz yuxarı komandanlığın əmri ilə Cəbrayıl rayonu istiqamətində döyüşlərə davam edib. "Kəndlərimiz, rayonlarımız işğaldan bir-bir azad olunduqca ruh yüksəkliyimiz, qələbə əzmimiz daha da artırdı. Digər ərazilərimizin işğaldan azad olunmasına can atırdıq. Tək amalımız doğma Qarabağımızın azadlığı idi. Elə bu amalla da istəyimizə nail olduq. Haqq davamız Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında ordumuzun Böyük Qələbəsi ilə başa çatdı."

"Döyüşlərdən sonra ölkə rəhbərliyi tərəfindən "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olundum. Torpaqlarımızın işğaldan azad olunmasında payımın olduğuna görə sevincimin həddi-hüdudu yoxdur. Qələbə əzmimizlə, vətənpərvərlik ruhumuzla ərazi bütövlüyümüzü bərpa edərək "Qarabağ Azərbaycandır!" ifadəsini döyüş meydanında da təsdiq etdik", - deyə əsgər Eldəniz Qaraxanov bildirdi.

**Leytenant
Elçin İMANOV,
"Azərbaycan Ordusu"**

# Qoşunların döyüş təminatının bir növü də kimya təminatı və kütləvi qırğın silahlarından qorunmaqdır



***Müasir dövrdə bütün inkişaf etmiş ölkələr öz hərbi potensialını saxlamaq və inkişaf etdirmək üçün ordusunu kütləvi qırğın silahları ilə təchiz etməkdədirlər. Son dövrlərdə baş vermiş lokal müharibələrdə kimyəvi və bioloji silahlardan istifadə faktlarının olması insanlar üçün böyük təhlükə törədən kütləvi qırğın silahlarından qorunma ilə bağlı məsələlərin aktuallığını daha da artırır.***

Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurasının müvafiq qətnaməsinə əsasən dünya dövlətləri nüvə, kimyəvi, bioloji silahların və onların daşınma vasitələrinin yayılmasının qarşısını almaq üçün hər cür tədbirlər görməyi, o cümlədən bu silahlara aid materiallara lazımi nəzarət etməyi öhdəlik götürüblər. Buna baxmayaraq kimyəvi və bioloji silah istehsal edən ölkələrin sayı bu gün də artmaqdadır. Döyüşlərdə kütləvi qırğın silahlarının tətbiq edilməsi şəxsi heyətin və texnikanın itkilərinə, böyük çirklənmə və dağılma zonalarının yaranmasına, radioaktiv və kimyəvi şəraitin kəskin dəyişməsinə gətirib çıxarır.

Kimyəvi və bioloji silahlar nədir və istifadəsinin aşkarlandığı ərazilərdə hansı təhlükəsizlik qaydalarına əməl olunması barədə dolğun məlumatı Vətən müharibəsinin iştirakçısı, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin (KQSM) baş müəllimi - Kimya Xidməti rəisi mayor Rafiq Bəhramovdan öyrəndik. Təcrübəli zabit kütləvi qırğın silahları haqqında və döyüşlərdə hər hansı kimyəvi maddələrlə zəhərlənmiş əşya və obyektlərin aşkarlanması zamanı əməl olunmalı təhlükəsizlik qaydaları haqqında danışdı. R.Bəhramov qeyd etdi ki, qoşunların döyüş təminatının bir növü də kimya təminatı və kütləvi qırğın silahlarından qorunmaqdır. "Böyük dağıdıcı gücə malik kütləvi qırğın silahları kütləvi itki və dağıntıların törədilməsi üçün təyin olunub. Kütləvi qırğın silahlarından qorunma bölmələrin döyüş qabiliyyətinin saxlanılmasının əsas şərtidir. Qarşıya qoyulmuş tapşırıqların icrasına itkisiz nail olmaq üçün komandirlərin vəzifəsidir ki, şəxsi heyətin kütləvi qırğın silahlarından qorunması qaydalarını öyrənsin və tabeçiliyində olan hərbi qulluqçulara öyrətsin. Kütləvi qırğın vasitələrindən danışarkən, məlumat olaraq bildirmək istəyirəm ki, nüvə, kimyəvi və bioloji silahlar kütləvi qırğın silahlarına aiddir."

Zabit onu da vurğuladı ki, təhlükəsizlik qaydalarına əsasən əməliyyatlar zamanı hər hansı kimyəvi silah təhlükəsi olarsa, şəxsi heyətin təhlükəsizliyi, fərdi kimyəvi mühafizəsi xüsusi materiallardan hazırlanan xarici qoruyucu geyimlər, əleyhqaz və s. təmin edilir. Əleyhqazda kimyəvi maddələri udmaq üçün xüsusi filtrlər mövcuddur. Üst qoruyucu geyim isə dərini zəhərləyici maddələr ilə təmasdan qoruyur. Bu geyim növü, hazırda Qərb də daxil olmaqla, çox ölkədə yayılıb və yüksək səviyyəli qoruyucu dəstlərə aiddir. Yüngül keçilməz gödəkçələr, şalvar, çəkmə örtükləri (çəkməüstü corab) və ya kapişonlu plaşlar qısa müddətə qorunmaq üçün, məsələn, zəhərləyici maddələrlə yoluxan ərazidən keçərkən istifadə olunur. Zəhərləyici maddələr fərqli xüsusiyyətlərə malik olduğundan qorunmaq üçün hər birinə özünəməxsus kompleks tədbirlərin yerinə yetirilməsi tələb olunur. Əsəb-iflicedici təsirli zəhərləyici maddələr sinir sisteminə sürətlə təsir edir, eyni zamanda, sürətlə də parçalanır. Dəriyə təsir edən zəhərləyici maddələr dəri örtüyü ilə təmasda olduqda hüceyrə toxumasını məhv edir və uzun müddət öz xüsusiyyətlərini saxlaya bilirlər. Boğucu zəhərləyici maddələr isə nəfəs aldıqda bronxları və ağciyərləri yandırır. Ümumi zəhərləyici maddələr isə qanın oksigen daşıma qabiliyyətinə mane olur. Onlar tez təsir edir, eyni zamanda, tez də dağılır. Zəhərləyici maddələr qaz, maye, aerozol və ya toz halında ola bilər. Təhlükəsizlik qaydalarına əsasən zəhərlənmiş zonadan çıxarkən özündə və cihazda radioaktiv çirklənmənin olub-olmamasını yoxlamaq, mühafizə geyimini üzü külək istiqamətində çıxarmaq, fərdi mühafizə vasitələrini dezaktivasiya məhlulları ilə təmizləmək və dozimetrik nəzarət aparmaq lazımdır.

Bundan başqa, zabit radioaktiv tullantıların aşkarlandığı zaman onların izotopların parçalanma dövrləri, fiziki və kimyəvi xüsusiyyətləri nəzərə alınmaqla, yerin müxtəlif dərinliklərində xüsusi metallardan inşa edilmiş beton bokslarda saxlanılmalı (basdırılmalı) olduğunu bildirdi. "Bəzi hallarda radioaktiv tullantılar (geyim formaları və digər vasitələr) yandırılaraq məhv edilir. Radioaktiv tullantıların basdırılması zamanı torpağın struktur quruluşu, qrunt sularının miqdarı, fiziki və kimyəvi xüsusiyyətləri nəzərə alınmalıdır. Radioaktiv tullantılar basdırılan sahələr və yaxud stansiyalar yaşayış məntəqələrindən ən azı 20 km aralı olmalı və həmin ərazilərdə sanitar-ekoloji mühafizə zonalarının yaradılması vacibdir. Aparılan tədqiqatlara əsasən radioaktiv tullantıların basdırılması üçün ən yaxşı yer gilli, daşlı və qumlu süxurlar hesab olunur. Onu da bilməliyik ki, ekologiyanın zərər görməməsi, radioaktiv çirklənmənin qarşısını almaq və tullantıların təsirini azaltmaq məqsədi ilə enliyarpaqlı və iynəyarpaqlı meşə sahələrinin salınması vacibdir."

- Vətən müharibəsi zamanı da Ermənistan silahlı qüvvələrinin qadağan olunmuş kimyəvi silahlardan istifadə etdiyinin şahidi olduq. Rəşadətli ordumuzun gücü və qüdrəti qarşısında aciz qalan düşmən mülki əhalinin olduğu ərazilərə qadağan olunmuş kasetli və fosforlu bombalardan atəşlər açmaqdan çəkinmədi. Halbuki bu tip silahların istifadə edilməsinin qadağası ilə bağlı Sankt-Peterburq deklarasiyası qəbul edilib. Bundan başqa, fosforlu bombalardan istifadəni qadağan edən Cenevrə konvensiyasının üçüncü protokolu mövcuddur. Qadağan olunmuş bu kimyəvi silah insan orqanizminə daxil olan kimi tez həll olur. Mədə-bağırsaq sisteminin fəaliyyətini dərhal sıradan çıxarır, ürək sisteminin fəaliyyətinə güclü təsir edir və insanda halsızlıq, təngnəfəslik yaradır. Bu, təkcə fosfor məzmunlu bombaların tüstüsünün insanlara etdiyi təsirdir. Bundan başqa, bu cür mərmilərin qəlpələri insanların bədənində dəhşətli yanıqlar əmələ gətirir. Mərminin qəlpələri, hətta suda belə sönmür. Belə mərmilərin partlayışı nəticəsində insan bədəninin dərisi öz-özünə soyulur, yaralıları müalicə etmək isə çətin olur, - deyə R.Bəhramov bildirdi.

**Leytenant**
**Oruc MUSTAFAYEV,**
**"Azərbaycan Ordusu"**

# Qubadlı məktəblilərinin “Əsgərə məktub” layihəsi davam edir

***Qubadlı rayon ümumi təhsil müəssisələrinin şagirdlərinin "Əsgərə məktub" layihəsi davam edir. Bu dəfə məktublar Vətən müharibəsini qalibiyyətlə başa vuran, öz torpaq bütövlüyünü bərpa edən, işğalçı qüvvə üzərində zəfər çalan Azərbaycan Ordusunun əsgərlərinə ünvanlanıb.***



AZƏRTAC xəbər verir ki, müharibə dövründə olduğu kimi Novruz bayramı ərəfəsində də xalqımızın birliyini simvolizə edən çoxsaylı məktublar Vətənin keşiyində dayanan əsgərlərə göndərilib. Məktublarda şagirdlər öz arzu və istəklərini bildirir, bayram təbriklərini çatdırır, onlarla qələbə sevinclərini bölüşüblər. Hər məktub bir məktəblinin ordumuza, ordumuzun əsgərinə səmimi müraciəti, onun Vətən sevgisi ilə döyünən ürəyinin diqtəsidir.

Müzəffər ordumuzun qəhrəman əsgərləri işğaldan azad olunmuş torpaqlarda bayram tonqalı ətrafında məktəblilərimizin göndərdiyi məktubları oxuyaraq yalnız olmadıqlarını, bütün Azərbaycan xalqının ürəyinin onlarla birlikdə Qarabağda, Qubadlıda, Zəngilanda, Cəbrayılda, Füzulidə, Ağdamda, Laçında, Kəlbəcərdə döyündüyünü hiss edəcəklər.

# Müddətli həqiqi hərbi xidmətə yola düşəcək çağırışçılar xidmət yerləri haqqında məlumatlandırılıblar

***Apreldə həqiqi hərbi xidmətə göndəriləcək çağırışçılar Silahlı Qüvvələr üzrə xidmət yerlərinə təyinatla bağlı martın 27-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) tərəfindən SMS vasitəsilə məlumatlandırılıblar.***

SHXÇDX-dən AZƏRTAC-a verilən məlumata görə, vətəndaşlar xidmət edəcəkləri hərbi hissə və qoşun növünü qurumun rəsmi internet saytının (www.seferberlik.gov.az) "Elektron xidmət" bölməsinin "Həqiqi hərbi xidmətə çağırılan çağırışçıların hərbi xidmət keçmə yeri haqqında məlumatlar" alt bölməsində özləri haqqında tələb olunan məlumatları müvafiq qaydada daxil etməklə dəqiqləşdirə bilərlər. Həmçinin mobil telefonlardan çağırışçıların şəxsiyyət vəsiqələrinin nömrələrini (yeni nəsil şəxsiyyət vəsiqələrində isə seriya və nömrəni probelsiz daxil edərək) 9100 nömrəsinə qısa mesaj şəklində göndərməklə də müddətli həqiqi hərbi xidmətə çağırış barədə məlumat əldə etmək mümkündür. Bu xidmətdən bütün mobil operatorlara məxsus nömrələri olan şəxslər istifadə edə bilərlər.

Prezident İlham Əliyevin 2021-ci il martın 2-də imzaladığı "Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması haqqında" Sərəncama əsasən, 2003-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1986-2002-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2021-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

*31 Mart - Azərbaycanlıların Soyqırımı Günüdür*

# Tariximizin qanla yazılan səhifələri

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları hələ ötən əsrin əvvəllərindən azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirməyə başladılar. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki tarixi Azərbaycan kəndlərini əhatə etdi. Bu qanlı hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədib, azərbaycanlıların mənfi obrazını yaradaraq, özlərinin avantürist torpaq iddialarını pərdələdilər.

Birinci Dünya müharibəsindən, Rusiyada baş vermiş 1917-ci ilin fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin martından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumilikdə Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Rusiyada baş vermiş Oktyabr inqilabının nəticəsində Stepan Şaumyanın başçılıq etdiyi bolşevik Bakı Soveti Bakı quberniyasında hakimiyyəti ələ keçirməyə nail oldu. Etnik erməni olan və Britaniya hökumətindən milyon qızıl rubl məbləğində ilkin yardım alan S.Şaumyan Bakıda azərbaycanlılara qarşı bolşeviklərlə erməni millətçilərinin əməkdaşlığını təmin etdi.

Bakıda qırğın törədilməsinə hələ 1918-ci ilin yanvarında cəhd edildi. Müsəlman korpusunun komandiri general Talışınskinin həbsi şəhərin türk-müsəlman əhalisində ciddi qəzəb doğurdu. Bundan istifadə edən ermənilər isə silahlı toqquşmaya cəhd göstərdilər. Lakin ermənilərin yanvarda qırğın törətmək planları baş tutmadı. Hələ general Talışinski Bakıya gəlməzdən bir neçə gün əvvəl bolşevik rəhbəri Lenin Bakı Sovetinin başçısı Şaumyana belə bir məzmunda teleqram göndərir: "Hörmətli yoldaş Şaumyan, məktubunuz üçün təşəkkür edirəm. Sizin düşünülmüş siyasətiniz bizə çox xoşdur və yaranmış vəziyyətdə siyasətinizin daha dərin və ehtiyatlı diplomatiya ilə birgə tətbiq edilməsini məqsədəuyğun sayır və nəticədə qələbə çalacağımıza əminik. Çətinliklər gözlənilməzdir, indiyədək biz yalnız imperialistlər arasında narazılıqlar və münaqişələr nəticəsində irəli getmişik. Bu konfliktləri işlətməyi öyrənin, hal-hazırda diplomatiyanı öyrətmək vacibdir. Bütün dostlara xoş arzular və salamlar."

Ermənilər öz məkrli niyyətlərini mart ayında həyata keçirə bildilər. Şaumyan Bakı Sovetinin iclasında bildirir ki, bu təşkilat Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca is-

***Respublikamız yenidən müstəqilliyini qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edildi. Uzun illər gizli saxlanılan, üzərinə qadağalar qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Xalqımıza qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biri idi.***



tehkamına çevrilməlidir. Toqquşmanın başlanması üçün bəhanə isə Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmmədin cənazəsinin "Evelina" gəmisində Lənkərandan Bakıya gətirilməsini təşkil edən 48 hərbçinin gəlişi oldu. Ermənilər şayiə yaydılar ki, guya bu zabitlər Muğandakı malakan kəndlərini dağıtmaq barədə göstəriş alıblar. Bunu bəhanə gətirən Şaumyan gəmidəki zabitlərin tərksilah olunması üçün göstəriş verdi. Buna etiraz edən yerli əhali isə küçələrə çıxıb zabitlərin tərksilah olunmasına etirazını bildirdi. Beləliklə, dinc əhaliyə qarşı soyqırımı başladı. Belə ki, təxminən 7 min erməni əsgəri müxtəlif cəbhələrdən Bakıya gətirilir. Bundan başqa "Qırmızı qvardiya" adı altında yaradılan 10-12 minlik ordunun da 70 faizi ermənilərdən ibarət idi. Qabaqcadan hazırlanan anlaşmaya əsasən, bolşevik-erməni koalisiyası cəbhə boyu hücuma keçir. 1918-ci il martın 30-da erməni kilsəsi yanında toplaşan daşnak dəstəsi müsəlmanlara ilk atəş açdı. Təpədən-dırnağadək silahlanmış erməni əsgərləri müsəlmanların evlərinə basqınlar edərək onları vəhşicəsinə öldürür, körpələrə və qocalara aman vermirdilər. Qadınlar daha ağır şəkildə öldürülürdülər. Arxiv materiallarına əsasən qulaqları, burunları kəsilən, orqanları parça-parça edilən 37 qadının meyiti tapılmışdı.

Xalqımızın görkəmli oğlu Nəriman Nərimanov erməni vəhşilərinin törətdikləri qətliamlar haqqında belə bəhs edirdi: "Bolşevik olan bir müsəlmana belə aman verilmədi. Müsəlmanlara qarşı hər cür cinayəti etdilər. Nəinki kişilər, hətta hamilə qadınlar da daşnaklardan canlarını qurtara bilmədilər."

31 mart səhər tezdən bolşevik-daşnak dəstələri azərbaycanlılar yaşayan "Kərpicxana", "Məmmədli" və başqa məhəllələrə hücum etdilər. Həmin məhəllələri havadan təyyarələr, dənizdən isə hərbi gəmilər bombalamağa başladı. Ermənilər rusları inandırmışdılar ki, guya İçəri şəhərdə azərbaycanlılar rusları qırıblar. Matroslar bunun yalan olduğunu bildən sonra atəşi dayandırsalar da, artıq gec idi, alova bürünmüş məhəllələrdə ölənlərin sayı-hesabı yox idi. Erməni daşnak qüvvələri heç kimə rəhm etmirdilər, qarşılarına çıxan hər kəsi türk deyə dərhal qətlə yetirirdilər. Daşnaklar deyirdilər: "Biz heç bir bolşevik tanımırıq, təkcə müsəlman olmağın kifayətdir." Onlar evləri qarət edir, adamları yandırır, hamilə qadınları ağlasığmaz işgəncələrlə qətlə yetirirdilər. Ermənilər azərbaycanlılara məxsus məktəbləri, kitabxanaları, mədəniyyət ocaqlarının hamısını yandırırdılar. Hətta İçəri şəhərə hücum zamanı Bakının ən gözəl memarlıq abidələrindən olan "İsmailiyyə" binası yandırılır, "Açıq söz", "Kaspi", "Baku" qəzetlərinin redaksiyaları dağıdılır, "Təzə pir" məscidinin minarələri isə top atəşi ilə dəlik-deşik edilir.

Mart soyqırımı zamanı təkcə Bakıda 12 mindən çox adam qətlə yetirildi. Bolşevik-daşnak dəstələrinin bu vəhşilikləri ancaq Bakı ilə bitmir. Onlar Quba, Şamaxı, Kürdəmir, Salyan və Lənkəran qəzalarında soyqırımını davam etdirmişdilər.

Ermənilər bütün Azərbaycanı işğal etməyə cəhd göstərirdilər. Onlar bu dəfə Qarabağda yaşayan ermənilərlə birləşib Gəncəyə hücuma hazırlaşırdılar. Lakin 1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, Azərbaycanın ərazi bütövlüyü uğrunda ölüm-dirim mübarizəsinin başlanması işğalçıların bütün planlarını pozdu.

Mart hadisələri, əslində, bolşeviklərin daşnaklarla birlikdə həyata keçirdikləri milli qırğın idi. Bu qırğının əsas təşkilatçısı olan Şaumyan özü də 1918-ci il aprelin 13-də rəsmi məktubunda etiraf edirdi: "Biz süvari dəstəmizə birinci silahlı hücum cəhdindən bəhanə kimi istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik... Bizim altı min nəfərə yaxın silahlı qüvvəmiz var idi... "Daşnaksütyun"un da üç-dörd min nəfərlik milli hissələri var idi ki, bunlar da bizim ixtiyarımızda idi. Milli hissələrin inkişafı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdi, lakin buna yol verməmək mümkün deyildir. Biz bilərəkdən buna yol verdik."

1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Lənkəran və digər ərazilərdə erməni faşistləri 50 min azərbaycanlını qətlə yetirib, 10 minlərlə insanı öz ata-baba yurdundan qovublar. Bu qətliamlar Azərbaycan xalqının tarixinə qara hərflərlə yazılıb.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci il mart hadisələrinə xüsusi diqqət yetirdi. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci illərin martın 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edildi. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımına tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Yetmiş ildən sonra yenidən öz müstəqilliyinə qovuşan Azərbaycanda ermənilərin xalqımıza qarşı törətdiyi 31 mart soyqırımı faciəsinin araşdırılması və həqiqətlərin dünyaya yayılması işi ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə başlanılıb. 1998-ci il martın 26-da Ulu Öndərin imzaladığı və böyük tarixi əhəmiyyət daşıyan "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla 1918-ci il martın 31-i "Azərbaycanlıların Soyqırımı Günü" elan edildi. Bundan sonra həmin tarixin öyrənilməsi istiqamətində mühüm işlər görüldü, çoxlu əsərlər yazıldı və əcnəbi dillərə tərcümə olundu. Son illər bu sahədə aparılan araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanılıb. Quba şəhərində tapılan kütləvi məzarlıq bu faciənin qanlı epizodlarından biridir. 1918-ci ilin aprel-may aylarında yalnız Quba qəzasında 167 kənd tamamilə məhv edilib. Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə tikinti işləri aparılarkən aşkar olunub. 2009-cu ildə Nazirlər Kabinetinin sərəncamına uyğun olaraq "Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair tədbirlər planı" təsdiq edilib, aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksinin ucaldılması və abadlıq işlərinin aparılması qərara alınıb. Ərazidə yaradılmış Quba Soyqırımı Memorial Kompleksinin 2013-cü il sentyabrın 18-də açılışı olub. Aparılan tədqiqat zamanı müəyyən edilib ki, məzarlıqda azərbaycanlılarla bərabər, Qubada yığcam halda yaşayan ləzgi, yəhudi, tat və digər etnik qrupların nümayəndələri də amansızcasına qətlə yetirilərək basdırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" 2018-ci il 18 yanvar tarixli Sərəncam imzalanıb.

Dövlət başçısı 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar xalqımıza müraciətində deyirdi: "Erməni ideoloqları tərəfindən uydurulan "Böyük Ermənistan" dövləti yaratmaq üçün xalqımızın tarixi kobud şəkildə saxtalaşdırılmış, uydurma tezislər və yalançı faktlarla dünya ictimaiyyətini aldatmışlar. Siyasi-ideoloji təxribat və dezinformasiya sahəsində çoxillik təcrübəsi olan erməni millətçi ideoloqları xalqımıza qarşı daha incə və məkrli metodlarla təbliğat aparmışlar və bu gün də bu avantürist siyasəti davam etdirirlər."

Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Vətən müharibəsində qazanılan qələbə və 10 noyabr bəyanatı ermənilərin bir əsrdən çox davam edən ərazi iddiasına birdəfəlik son qoydu, tarixi ədalət zəfər çaldı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Şəhid ailələrinə dəstək tədbirləri və ziyarətlər davam edir





Bayram günlərində hərbi qulluqçularımız Vətən müharibəsi şəhidlərinin məzarlarını ziyarət edib, onların ailələri ilə görüşüblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşlərdə ailələrin qayğıları öyrənilib, onlara bayram hədiyyələri və sovqatlar təqdim olunub.

* * *

Vətən müharibəsi zamanı şəhid olmuş və itkin düşmüş hərbi qulluqçuların, eləcə də qazilərin ailə üzvlərinin Müdafiə Nazirliyi mütəxəssis-psixoloqları və yerli icra hakimiyyəti nümayəndələri tərəfindən ziyarəti davam edir.

Müdafiə Nazirliyi, həmçinin Salyan, Neftçala, Cəlilabad, Ağcabədi, Tərtər, Hacıqabul rayonları və Mingəçevir şəhər icra hakimiyyəti nümayəndələri ailələrin sosial problemlərini öyrənib, psixoloji yardıma və reabilitasiyaya ehtiyacı olan şəxslər müəyyənləşdirilərək onlara sosial-psixoloji dəstək göstərilib.

Bu qəbildən olan vətəndaşların problemləri daim diqqət mərkəzində saxlanılır və onlara dəstək tədbirləri davam etdirilir.

# Ağır yaralanan daha 27 qazimiz “YAŞAT” Fondu tərəfindən Türkiyəyə göndərilib



*"YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq qazilərimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdiriləcək.*

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən xəbərə görə, "YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq. Allah qazilərimizə şəfa versin!

Fond tərəfindən həkim rəyi əsasında ağır yaralı olan qazilərimizin müalicə üçün xaricə davamlı şəkildə göndərilməsi təmin edilir.

Xatırladaq ki, Fond tərəfindən bundan öncə 24 qazimiz müalicə üçün Türkiyəyə göndərilmişdi. Onlardan 4-nün müalicə proseduru artıq uğurla yekunlaşıb və Vətənə qayıdıblar. Qazilərimizin qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də Fond tərəfindən təmin edilib.

*Hərbi texnikalar, silahlar*

# Mina əleyhinə “Kaya” zirehli müdafiə maşını



Mina əleyhinə “Kaya” zirehli maşını köməkçi nəqliyyat vasitəsi olaraq OTOKAR Otobüs Karoseri Sanayi A.Ş. müəssisəsi tərəfindən istehsal olunub. “Kaya” zirehli maşını mina əleyhinə müdafiə olunan zirehli maşınlar ailəsinə aiddir. Zirehli avtomobil yüksək dərəcədə mina əleyhinə mühafizəyə, həm də ballistik müdafiəyə malikdir. Ən çətin yerlərdən belə asanlıqla keçməyə qadirdir. Yüksək keçidliyi təmin etmək üçün “Kaya” maşını Daimler Chrysler Unimoq U5000 şassisi üzərində işlənilib. Onun zirehli kabinəsi və heyət üçün bölməsi ayrı-ayrı iki blok qismində şassi üzərində quraşdırılıb. Mina əleyhinə müdafiə maşını “Kaya” sıx konfiqurasiyasına və istifadəçilərin tələbinə görə müxtəlif tapşırıqları asanlıqla yerinə yetirməyə qadirdir.

Heyəti iki nəfərdən ibarətdir. Mina əleyhinə “Kaya” zirehli müdafiə maşını, həmçinin on nəfər desant daşımaq qabiliyyətinə malikdir. Mina əleyhinə müdafiə maşınının hündürlüyü 2916 mm, eni 2500 mm, uzunluğu 6483 mm-dir. Çəkisi isə 12500 kiloqramdır. Zirehli maşının şose yolda maksimal sürəti saatda 96 kilometr, şose yolda ehtiyat hərəkəti 800 kilometr təşkil edir. Su maneələrinin dərinliyi 1200 mm, şaquli divarları 480 mm-dir. “Kaya” zirehli maşının mühərrikinin gücü 218 at gücündədir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə terror aktı planlaşdıran İŞİD üzvü həbs edilib



Türkiyənin Denizli vilayətində terror aktı planlaşdıran İŞİD üzvü həbs edilib.

Türkiyənin təhlükəsizlik qüvvələrinə bu şəxsin terror aktı törətmək məqsədilə şəhərə gəldiyinə dair məlumat daxil olub. Bundan sonra terrorçunun saxlanılması istiqamətində xüsusi əməliyyat başladılıb. Əməliyyat nəticəsində ələ keçirilən 30 yaşlı terrorçunun ünvanında aparılan axtarış zamanı partlayıcı maddə ilə yanaşı İŞİD-ə aid çox sayda rəqəmsal və maddi material da aşkarlanaraq müsadirə edilib.

## Pakistanda “Şahin 1-A” ballistik raketi uğurla sınaqdan çıxarılıb



Pakistanda uçuş məsafəsi 900 kilometr olan uzaqmənzilli "Şahin 1-A" ballistik raketi uğurla sınaqdan çıxarılıb.

Pakistan mətbuatı xəbər verir ki, "torpaq-torpaq" sinfinə aid olan ballistik raketin naviqasiya parametrləri və digər göstəriciləri təkmilləşdirilib.

Raketin sınaqdan uğurla çıxması ilə bağlı Pakistan Prezidenti Arif Alvi və Baş nazir İmran Xan hərbçiləri təbrik edib.

Bundan əvvəl Pakistanda "Babur" (uçuş məsafəsi 490 kilometr), "Şahin-1" (650 km), Ghauri (1300 km), "Şahin-2" (1500 km) və "Şahin-3" (2750 kilometr) raketləri də uğurla sınaqdan çıxarılıb.

## İranın Şuş şəhərində terrorçuların hücumunun qarşısı alınıb



İranın Şuş şəhərindəki hərbi bazalara hücum edən terrorçulardan biri öldürülüb, digəri isə yaxalanıb.

Bu barədə İranın Təhlükəsizlik Nazirliyinin yaydığı bəyanatda deyilir.

Nəzərə çatdırılıb ki, martın 26-da "Əl-Əhvaz" adlı terror qruplaşmasının üzvləri gecə saatlarında Xuzistan vilayətindəki Şuş şəhərində yerləşən hərbi bazaya "Kalaşnikov" markalı silahlarla hücum edib, bazanı atəşə tutublar. Lakin bazadakı növbətçilərin sayıqlığı nəticəsində terror hücumunun qarşısı alınıb. Terrorçulardan biri zərərsizləşdirilib, digəri isə tərksilah edilib. Onlardan mobil telefon, saxta sənədlər, qumbara və "Kalaşnikov" markalı avtomat silahlar götürülüb. Bəyanatda, həmçinin bildirilib ki, xarici dövlətlərin xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən terrorçuların məqsədi separatçı meyilləri gücləndirmək və İranda sabitliyi pozmaqdan ibarətdir.

Qeyd edək ki, İranın Xuzistan vilayətində qeyri-leqal şəkildə fəaliyyət göstərən "Əl-Əhvaz" qruplaşması ara-sıra terror hücumları təşkil etməyə çalışır. Qruplaşma üzvlərinin 2018-ci ilin sentyabrında Əhvaz şəhərində keçirilən hərbi parad zamanı insanları atəşə tutmaları nəticəsində 25 nəfər həlak olmuş, 69 nəfər isə ağır yaralanmışdı.

## Süveyş kanalında tıxac yaradan gəmini saydan çıxarıblar



Süveyş kanalının bir həftəyə yaxın müddətdə bağlanmasına səbəb olan "Ever Given" yük gəmisi tədricən üzməyə başlayıb.

Misirin Süveyş Kanalı İdarəsi xəbər verir ki, saya oturmuş 400 metr uzunluğunda olan gəmini yerindən tərpətmək mümkün olub və o, şimal istiqamətində hərəkət edib. Hazırda yedək gəmiləri işi davam etdirir. Bunun üçün əraziyə 17 dartı qurğusu, o cümlədən Niderlanddan gətirilmiş 285 ton yük çəkən "Alp Guard" qurğusu cəlb edilib. Bundan başqa, gəminin ətrafı və altından 27 min kubmetr həcmində qum təmizlənib.

**AZƏRTAC-ın materialları əsasında**

Vətən müharibəsi: Zəfər ovqatı

# Şükürbəylidə əsən yellərin qanadları yorulmamışdı...

*Karxulu kəndini işğaldan azad etmişdilər. Hamısı bu qələbəni tam qələbənin tərkib hissəsi bilir, bir-birini təbrik edirdilər. Bu təbriklərin mahiyyəti "Sən mərdliklə döyüşdün" ehtiramıydı, "Sən igidsən, qardaş..." sevgisiydi. Necə gözəl anlarıydı, necə!..*

Hərdən adama elə gəlir ki, zaman dayanıb - görməli olduğun işi görməyə tələsəndə, həsrətinə yetmə ərəfəsində, niyyətini gerçəkləşdirmək istəyəndə, ... düşüncələrində gözəgörünməz bir titrəyiş yaranır. Vətənə gərəkdirsə, ləngidiyi güman edilən anlar duyumluların ömrünün çən-çisəyinə dönür. Müharibədə bu duyğuları döyüşçülər bir qədər də həyəcanla yaşayır. Onda ömrü uzanan saniyələr bir ürək tutumunca qınanır. Onda döyüşçünün ürəyi gecədürsə, dan yerinə, gündüzdürsə, şər qarışana meyillənir. Vətən müharibəsində zabit Orxan Qədirovun rəhbərlik etdiyi qrupun döyüşçüləri Şükürbəyli istiqamətində hərəkətə başlama ərəfəsində bu duyğuların ruhmisal cazibəsindəydilər; zaman ötüşmürdü, vaxt dayanmışdı elə bil. Hamı düşmənin son nəfəsinə dönəcək güllələrin atılacağı anlara tələsirdi. Bu anların yaşadacağı qələbə sevinci sonrakı döyüşlərin başlanğıcı olacaqdı...

Hücumu Şükürbəyli kəndi istiqamətində davam etdirəcəkdilər. Döyüşçülər komandirlərinə, komandir uzaqlara baxırdı. Şükürbəyliyə sarı əsən yellərin qanadlarının yorulmadığını döyüşçülərin hamısı duyurdu.

"Əlini gözünün üstünə qoyub baxanlar" Şükürbəyli kəndini aydınlığıyla görürdü. O boyda kənddə cəmi 2-3 salamat bina qalmışdı. Orxan Qədirov Şükürbəylinin hüdudlarında olduqlarını da, kənddə evlərin dağıldığını da rabitə vasitəsilə komandirə bildirdi. Ona ehtiyatlı olmağı tapşırdılar. Bildirdilər ki, hücumu Ziya Feyziyevin qrupu ilə qarşılıqlı koordinasiya əsasında aparmalısınız, həmin qrupa zabit Sirac Siracov rəhbərlik edəcək.

Xüsusi rabitə vasitəsi olsa da, Sirac Siracovla rabitə əlaqəsi müntəzəm alınmırdı. Yolun solu-sağı adam boyundan da hündür qamışlıq idi. Yuxarıda olduğu üçün Orxan Qədirovun qrupuna daxil olan döyüşçülər hər yeri maneəsiz görür, davamlı müşahidə aparırdılar. Ziya Feyziyevin qrupundan 400-500 addım aralıda bir tikili diqqətlərini çəkdi, bunu da, digər diqqəti çəkən oriyentirləri də Sirac Siracova çatdırdılar.

Yeniyetməliyimdə Qaraxaç yaylağında könüləyatımlı Xram adlı çəmənzara gedəndə təpələr silsiləsini də aşardıq. Bir təpəni aşanda da, o təpədən enəndə də təpəliklərdə olanların baxışları altında olursan. Müharibədə belə relyefdə irəliləməyin çətinliyini ifadə etməyə qüdrətim çatmaz. O çətinliyin necə çətinlik olduğunu döyüşənlər bilər. Döyüşçülər bilir, oxucu da bilsin ki, belə çətin anlar bəzən ruhu candan da ayırır, ömür də gödəldir...

Orxan Qədirovun qrupu təpələrdən birinin aşağısı ilə irəliləyirdi. Öndə olan dozor bildirdi ki, qarşıda düşmən mövqeyinə bənzəyən maneə görünür. Qrup bir-birinə bağlı olan təpəliklər silsiləsini bir qədər maili keçərək düzənliyə çıxdı. Qarşılarında xeyli uzaqlarda səngərə bənzəyən mövqe göründü. Bu, dozorun bildirdiyi maneə idi. Düşmən onların gəlişini duymuş olsa, qrupu yaxına buraxar, pusqu qura bilərdi. Bu ehtimala görə Orxan Qədirov qrupu iki yarımqrupa ayırdı. İkinci yarımqrupa rəhbərliyi zabit Ələkbər İsazadəyə (qrup komandirinin müavini kimi yarımqrupa rəhbərlik etmək onun vəzifə borcu idi) tapşırdı. Hər iki yarımqrup Orxan Qədirovun ümumi rəhbərliyi ilə əmrin icrasına başladı; Ələkbər İsazadənin yarımqrupu silsilənin solundan keçəcəkdi, zabit Ramiq Babayevin rəhbərlik etdiyi yarımqrup qarşıdakı mövqeyə hücum edəcəkdi.

Əməliyyata başladılar. Orxan Qədirov Ələkbər İsazadənin rəhbərlik etdiyi yarımqrupun solla hərəkətini müşahidə edirdi. Onlara tapşırılmışdı ki, atəş açmasınlar, düşmən o biri yarımqrupa atışa başlasa, soldan "L" şəkilli hücum etsinlər. Orxan Qədirovun daxil olduğu yarımqrup bir xətt yana açılaraq sıçrama üsulu ilə düşmənə qarşıdan hücuma başladı. Düşmən onları bu istiqamətdən gözləmədiyi üçün oraları minalamayıbmış. Ələkbər İsazadənin rəhbərlik etdiyi yarımqrup müəyyənləşdirilmiş mövqeyə çatıb Orxan Qədirovdan xəbər gözləyirdi. Orxangil həmin mövqeyə 300 metr yaxınlaşanda qarşıda düşmənin tərpənişini müşahidə etdilər. Qalib Rəhimovla Namiq Nuriyev sağa açılaraq qrupun açılış xəttini xeyli genişləndirdilər. Hamısı xəttə çatanda Orxan Qədirov hücum əmri verdi. Atışma başladı. Düşmən o biri yarımqrupdan hələ ki, xəbərsiziydi.

Hava çox gözəl idi. Arasıra qara buludlar görünürdü. Yağış yağacağı deyilmişdi.

Düşmənin atışını üzərlərinə çəkdilər. Daraqdəyişmə anında bir neçə saniyəlik durğunluq yaranır. Döyüşçülərimiz bunu mükəmməl öyrəndiklərindən atışlarında belə hal olmurdu, atışın intensivliyi aşağı düşmürdü. Həm də qrupun üzvləri atışda da bir-birini gözəl anlayırdı. Qrupun bu səviyyədə döyüşü düşməndə belə bir rəy yaradırdı ki, hücuma keçənlərin sayı xeyli çoxdu. Düşmənin daraqdəyişmə anında, atışı zəifləyəndə Orxan Qədirov qrupun döyüşçülərinə atışı saxlamaq, Ələkbər İsazadənin qrupuna hücuma keçmək əmri verdi. Yarımqrup düşmən səngərinə girdi. Həmin anlarda birinci yarımqrup səngərə ön tərəfdən hücum etdi. Düşmənin müdafiəolunma imkanları xeyli azalanda birinci qrup manevrlə istiqamətini dəyişərək hücumu elə təşkil etdi ki, düşmən hücumun hansı tərəfdən edildiyini müəyyənləşdirə bilmədi. Arzuladıqları çaşqınlıq yarandı...

Mövqedəki düşmənlər məhv edildi...

Komandanlığa məruzə edildi....

Şükürbəylini həmin gün azad etmək istəyirdilər.

Təxminən 5 kilometr irəlilədikdən sonra Şükürbəylinin üstündəydilər.

Arada heykəl şəkilli böyük bir dairə, dairənin üstündə ermənilik nişanı vardı. Bura üç yolun kəsişməsiydi. Sonradan biləcəkdilər ki, yollardan biri ilə - Orxan Qədirovun daxil olduğu yarımqrupun solu ilə Sirac Siracovun rəhbərlik etdiyi qrup gəlir. Yollardan biri Cəbrayıl rayonuna, digəri Soltanlı kəndi istiqamətinə aparır.

Dairənin solunda hərbi hissə vardı. Orxan dərhal komandirlə əlaqə yaratdı, bildirdi ki, qarşıda iki bina var, bir uzun antena dirəyində kamera quraşdırılıb, iri üçbucaq formasında böyük elektrik dirəyində bir qurğu görünür. Əmr verildi ki, ora Sirac Siracovun qrupu yoldan, Orxan Qədirovun qrupu təpələrdən hücum etsin.

Şükürbəyli təpədən sağda, Orxan Qədirovun qrupunun solundaydı, sağlarında bir kəndin xarabalıqları görünürdü. Aralarındakı məsafə 500-1000 metr ancaq olardı. Xarabalıqdan bu istiqamətə minaatanlardan atəş açılırdı.

Zabit Tariyel Zöhrabov rabitə ilə bildirdi ki, hələ kəndə girməyin, ora artilleriya ilə atış aparacağıq, atışdan sonra girərsiniz. Belə də oldu. Ora beş-altı mərmi düşdükdən sonra Orxanın qrupu hərəkətə başladı. Atəş açmırdılar, xarabalıq və qamışlıqların arası ilə irəliləyir, kəndə gizlincə sızırdılar.

Artilleriya atışından sonra düşmən xarabalıqlara doğru qaçırdı. Onlara elə gəlmişdi ki, hücum ancaq artilleriya atışından ibarətdir.

Orxan Qədirovun qrupu xarabalığın içindəydi. Bu an bir düşmən qadını qaçaraq onlara tərəf gəlirdi. Onlardan xəbərsiziydimi, təxribatıydımı, erməniliyiydimi, hər nəyiydisə, qaçaraq yaxınlaşırdı. Sağ tutduqları qadından öyrəndilər ki, burada atışanların çoxusu qaçıb, orada təxminən on nəfər qalıb, onlar da qaçır.

Sirac Siracovun qrupu atışa başlamışdı. Bu anda Orxan Qədirovun qrupu sağ tərəfdən atışa dəstək verərək düşmənin taborunun ərazisinə sızmağa başladı. Oradan bir QAZ-31 markalı maşının Sultanlı kəndi istiqamətinə getdiyini gördülər. Bu, hücumun səviyyəsini də, düşmənin niyyətini də müəyyənləşdirməyə yardımçı oldu...

İki istiqamətdən hücuma məruz qalan, müqavimət əzmi qırılan, az sayda döyüşçünün hücumunu dayandırmağa gücü çatmayan düşmən çoxlu sayda itki verdi.

Əmrin yerinə yetirildiyini məruzə etdilər...

İki bina var idi. Biri hərbi hissənin qərargahı, sinif otaqları, rəhbərlik xidməti otaqları idi, digərində ailələr yaşayırmış. Binanın həyətində idman kompleksi, digər tərəfdə zirzəmidə təminat anbarı vardı. Düşmən buradan uzaqlaşdırılacağını güman etmirmiş...

Nələri var idisə, hər şeyi qoyub qaçmışdılar. Həyətdə çoxlu sayda kisələrdə kök, kələm, ət, toyuq vardı. Yeni gətirilibmiş. Döyüşçülərimizin kinayəli baxışları kisələrdən yayınıb qarşı tərəfə dikildi...

Düşmənin mövqe məğlubiyyəti, qaçması döyüşçülərimizin qələbə ruhunu kükrətmişdi. Şükürbəylidən əsən yellərin qanadlarının Zəfər gününəcən yorulmayacağına əminiydilər...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# İdman

## Azərbaycan komandası "Böyük dəbilqə" turnirini iki medalla başa vurub




Tbilisidə keçirilən "Böyük dəbilqə" turniri başa çatıb.

Yarışın son günündə ağır çəkili cüdoçularımız Uşangi Kokauri (100 kiloqramdan yuxarı) və Aslan Mirzəyev (100 kiloqram) mübarizə aparıblar. A.Mirzəyev ilk qarşılaşmada Reda Nafvanı (Qətər) məğlub etsə də, özbəkistanlı rəqibi Muzaffarbek Turoboyevlə bacarmayıb. Digər cüdoçumuz, U.Kokauri isə Türkiyə təmsilçisi Cemal Erdoğana məğlub olaraq mübarizəni dayandırıb.

Beləliklə, Azərbaycan komandası yarışı iki bürünc medalla başa vurub. Belə ki, turnirin birinci günü kişilər arasında 60 kiloqram çəki dərəcəsində yarışan Kəramət Hüseynov onaltıdabir finalda Rodriqo Lopesi (Portuqaliya), səkkizdəbir finalda Ramazan Abdullayevi (Rusiya) mübarizədən kənarlaşdırsa da, dörddəbir finalda Tornine Tsjakadoea ilə qarşılaşmada məğlub olub. Təsəlliverici görüşdə Monqolustan təmsilçisi Ariunbold Enkhtayvana qalib gələn idmançımız bürünc medal uğrunda mübarizə aparmaq hüququ qazanıb. K.Hüseynov üçüncü yer uğrunda görüşdə rusiyalı Konstantin Simeonidis ilə qarşılaşmalı olsa da, rəqib zədə səbəbindən görüşdən imtina etdiyinə görə, cüdoçumuz qalib elan edilərək üçüncü yerə sahib olub.

Növbəti bürünc medalı isə komandamıza 87 kiloqram çəki dərəcəsində mübarizə aparan Murad Fətiyev qazandırıb. O, ardıcıl olaraq Din Gemer (İsrail), Xose Mendiola (İspaniya) və Abdelrahman Məhəmmədi (Misir) mübarizədən kənarlaşdırsa da, dörddəbir finalda Toto Grigalaşvili (Gürcüstan) ilə qarşılaşmadan məğlub ayrılıb.

Təsəlliverici görüşdə Portuqaliyanı təmsil edən Anri Egutidzeyə qalib gələn idmançımız bürünc medal uğrunda kanadalı Antuane Valua-Forte ilə mübarizə aparıb. Rəqibi üzərində qələbə qazanan cüdoçumuz üçüncü yeri tutub.

Komandamız iki bürünc medalla 16-cı sırada qərarlaşıb.

## Bədii gimnastlarımız dünya kuboku yarışlarında daha bir medal qazanıblar



Bədii gimnastlarımız Bolqarıstanın paytaxtı Sofiyada yekunlaşan dünya kuboku yarışlarında daha bir medal qazanıblar.

Hər iki çıxış proqramı üzrə finala vəsiqə qazanmış qrup hərəkətləri komandamız 3 halqa və 2 cüt gürzlə bürünc medala sahib olublar. Zeynəb Hümmətova, Darya Sorokina, Məryəm Səfərova, Ləman Əlimuradova və Yelizaveta Luzan bu dəfə fəxri kürsünün üçüncü pilləsində yer alıb.

Xatırladaq ki, daha əvvəl komandamız çoxnövçülük yarışlarında gümüş medal qazanıb.

## Azərbaycan şahmatçısı Monteneqroda keçirilən daha bir turnirdə uğurla çıxış edib



Monteneqroda təşkil olunan şahmat festivalı çərçivəsində keçirilən daha bir turnirdə Azərbaycan təmsilçisi Aydın Süleymanlı uğurla çıxış edib.

Yarışda iştirak edən şahmatçımız 9 turdan 6,5 xal toplayaraq ikinci yeri tutub. Turnirin qalibi 8,5 xalla Türkiyə şahmatçısı Vahap Sanal olub.

Qeyd edək ki, şahmatçımız festival çərçivəsində bundan əvvəl keçirilmiş qrossmeyster normalı yarışda 5,5 xal toplayaraq üçüncü yeri tutub.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini**
mayor
Məhəmməd ƏLİYEV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Elçin İMANOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № **361**
Sifariş № **210**
Nüsxə **4050**